Müşavirə təhsil müəssisələrinin milli mühasibat uçotu standartlarına keçidlə əlaqədar real vəziyyət və qarışda duran vəzifələrə həsr olunub.

Müşavirələrdə 2008-ci ildə Təhsil Nazirliyinin maliyyə-təsərrüfat fəaliyyətinin yekunları ilə yanaşı, həmin zonalarda yerləşən təhsil müəssisələrinin ötən ilin hesabatları təhlil edilib, mövcud problemlər və onların aradan qaldırılması istiqamətində müzakirələr aparılıb.

Tədbirdə “Mühasibat uçotu haqqında Azərbaycan Respublikası Qanun”una uyğun olaraq, təhsil müəssisələrinin milli mühasibat uçotu standartlarına keçidi ilə əlaqədar yaranmış real vəziyyət və qarşıda duran vəzifələr barədə çıxışlar edilib, müəssisə rəhbərlərinə, eləcə də baş mühasiblərə müvafiq tapşırıqlar verilib.